# Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər




**Odlar Yurdunun ən qədim nişanələrindən olan Atəşgahın vətəni Suraxanı həm də milli sərvətimiz olan neft buruqlarının yatağıdır. Qədim mədəniyyət və din mərkəzlərindən biri olan, yaxın keçmişdən etibarən isə iri sənaye rayonlarından birinə çevrilən Suraxanıya layiq olduğu qiyməti verməyin vaxtı çatmışdı. Çünki son dövrlərə qədər bu rayon paytaxtımızın rayonlarına nisbətən daha zəif inkişaf etmiş və abadlaşmışdı.**

Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 2006-2007-ci illəri əhatə edən Tədbirlər Proqramı, həmçinin 2011-2013-cü illəri əhatə edən Dövlət Proqramının qəbul olunması, o cümlədən "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" Suraxanının görünüşündə, sosial, iqtisadi və mədəni həyatında əhəmiyyətli rol oynadı.

### TORPAĞI DA ŞƏFA VERİR, SUYU DA

212,2 min əhalinin məskunlaşdığı Suraxanı rayonu Bakı şəhərinin cənub-şərqində yerləşir və ərazisinin 13 kilometri Xəzər dənizi ilə əhatə olunub. Ərazisi 122 kvadratkilometrdir, əsası 1920-ci ildə qoyulub. Rayonun inzibati ərazi vahidliyinə 6 qəsəbə daxildir: Əmircan, Bülbülə, Qaraçuxur, Hövsan, Yeni Suraxanı və Zığ. Neft və təbii qazla zəngin rayonun iqtisadiyyatının əsasını neft-qaz və maşınqayırma sənayesi təşkil edir.

Rayonun Zığ qəsəbəsində yerləşən "Duzlu göl" isə çox insana şəfa verib. "Duzlu göl" dənizkənarı çimərliklərdən xüsusilə fərqlənir. Çünki onun suyu və palçığı müalicə əhəmiyyətli olduğuna görə hətta dünyanın bir çox yerindən bura çimməyə gəlirlər. Bu gölün suyu və palçığı duzlaşma, revmatizm, sinir ağrıları, podaqra, yəni oynaq ağrıları, artirid və nevrid kimi xəstəliklərin dərmanıdır.

"Duzlu göl"ün yaxınlığında isə kiçik yodlu göl var. Yeriyə bilməyən xəstələrin bir neçə günlük yod gölü səfərindən sonra normal yeriməsi faktları olduqca çoxdur. Qeyd edək ki, göl təxminən 1958-60-cı illərdə təbii formada yaranıb. Əvvəllər bu gölün yerinə neft yataqlarının tullantıları olub. Sonradan göl yaranıb, gölün ətrafında hələ də köhnə buruqlar var. İndi ölkənin hər tərəfindən gələn insanlar ödənişsiz olaraq bu göldə şəfa tapırlar.

### RAYON ƏHALİSİNƏ DİQQƏT GÖSTƏRİLİR

Sosial-iqtisadi inkişafı sahəsində qəbul edilmiş dövlət proqramlarının həyata keçirilməsi Suraxanıda da abadlıq-quruculuq işlərinin sürətlənməsinə, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşmasına imkan verib. Qısa dövr ərzində rayonun bir sıra küçələrində təmir-bərpa və abadlıq işləri aparılıb. Rayon əhalisinin sosial müdafiəsinin gücləndirilməsi məsələləri daim nəzarətdə saxlanılıb.

Həmçinin yola saldığımız il sakinlərə səyyar görüş-qəbulların keçirilməsinə diqqət artırılıb, RİH başçısının ümumilikdə 1125 nəfər sakinin iştirakı ilə keçirilən 18 səyyar görüş-qəbulunda qaldırılan məsələlərə və təkliflərə əsasən aidiyyəti idarə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilib, icrasına daim nəzarət edilib.

Suraxanının sosial-iqtisadi inkişafı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, geniş abadlıq və quruculuq işlərinin aparılması, kommunal və digər xidmətlərin səviyyəsinin



yüksəldilməsi istiqamətində işlər ötən il ərzində davam etdirildi, dövlət başçısının Nazirlər Kabinetinin məlum iclasında qarşıya qoyduğu vəzifələrin icrası naminə bütün imkanlar səfərbər olundu.

### I AVROPA OYUNLARINDA SURAXANI İMZASI

Ölkəmizdə ilki keçirilən I Avropa Oyunlarının rəmzi sayılan məşəl də mənbəyini bu rayondan aldı. Suraxanıda yerləşən qədim "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq qoruğunda birinci Avropa Oyunlarının məşəli alovlandırıldı, məşəl prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri, habelə tanınmış insanların iştirakı ilə bütün ölkəni gəzdi.

Birinci Avropa oyunları Suraxanı idmançıları üçün çox uğurlu olub, karate idman növü üzrə Ayxan Mamayev qızıl medal, sambo üzrə Vasif Səfərbəyov gümüş medal, qılıncoynatma idman növü üzrə Sevil və Sevinc Bunyatova bacıları 1 gümüş və 1 bürünc medal qazanıb.

Oyunlar ərəfəsində Suraxanıda xeyli yenidənqurma işləri aparılıb, Əmircan qəsəbəsi, Tofiq Bayram parkı əsaslı təmir olunaraq yenidən qurulub, Bülbülə qəsəbəsi, 24 nömrəli poliklinikanın qarşısında yeni park salınıb, rayonun Səttar Bəhlulzadə, İlqar Məmmədov və Xanlar Ələkbərov küçələrində ümumilikdə 12,0 min kv.m yaşıllıq salınıb.

### ÖTƏN İL SURAXANI ÜÇÜN YENİDƏNQURMA İLİ OLDU

2015-ci ildə Suraxanı rayonunda yenidənqurma, abadlıq işləri geniş vüsət alıb. Səttar Bəhlulzadə və Oqtay Əliyev küçələrində 27,7 min kv.m. sahəyə asfalt vurulub, 5042 p.m. bordur düzülüb, 3252 kv.m səki asfaltlanıb, 2826 p.m. səki borduru düzülüb, küçələrin işıqlandırılması üçün 2707 metr elektrik kabeli çəkilib, işıq dirəkləri və çılçıraqlar quraşdırılıb.

Bundan əlavə 5,1 min kv.m. aqlay daşından üzlük işləri, 3,4 min kv.m. hörgü və 10,7 min kv.m. suvaq işləri görülüb, 2,3 min kv.m. tamet döşənib, 42,1 min kv.m.-lik sahə rənglənib, 629 kv.m. yeni dam örtükləri quraşdırılıb və digər abadlıq işləri görülüb.

### 9 AYDA 2355 DAİMİ İŞ YERİ

2015-ci ilin 9 ayı ərzində Suraxanı rayonunda sənaye məhsulunun istehsalı 198,1 milyon manat, tikinti-quraşdırma işləri 34,2 milyon manat, nəqliyyat xidmətləri 3,8 milyon manat, əsas kapitala yönəldilən investisiyalar 30,2 milyon manat, kənd təsərrüfatı 2,2 milyon manat, pərakəndə ticarət dövriyyəsi 238,8 milyon manat, orta aylıq əmək haqqı 546,4 manat təşkil edib, əhaliyə 184,3 milyon manat məbləğində pullu xidmətlər göstərilib, daimi olmaqla 2355 yeni iş yeri açılıb.

"2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda Suraxanı rayonu üzrə 54 tədbir nəzərdə tutulub, onların 4-ü icra olunub, 20-nin icrasına başlanılıb, başa çatdırılan və başlanılan tədbirlər proqramın 44,5 faizini təşkil edib.

2015-ci il ərzində Qaraçuxur qəsəbəsində 146 nömrəli orta məktəb üçün 25 əlavə sinif otağından ibarət tədris korpusu, idman və akt zalları tikilərək istifadəyə verilib, Əmircan qəsəbəsində 5 nömrəli və Yeni Günəşli yaşayış sahəsində 262 nömrəli uşaq bağçaları əsaslı təmir olunub, Qaraçuxur



və Bülbülə qəsəbələrində idman zallarının, Yeni Günəşli "V" yaşayış sahəsində idman meydançasının, Əmircan qəsəbəsində RİH tərəfindən 100 yerlik uşaq bağçasının, Yeni Günəşli "D" yaşayış sahəsində şahmat məktəbinin və yanğından mühafizə bölməsinin binasının tikintisi davam etdirilib.

### EKOLOGİYANIN QORUNMASINDA SURAXANININ PAYI

Ümumiyyətlə, Suraxanı rayonunda ekoloji məsələlərin həllinə diqqət həmişə hiss olunur. Dövlət başçısının müvafiq sərəncamlarına və qəbul edilmiş Dövlət Proqramına əsasən Bakı şəhərində mövcud olan göllərin, o cümlədən Bülbülə və Zığ göllərinin təmizlənməsinə, ətraflarının abadlaşdırılması istiqamətində işlər görülüb.

Rayonun əməliyyat şirkətləri tərəfindən lay suları və neftlə çirklənmiş 8,17 hektar torpaq sahəsi təmizlənərək texniki rekultivasiya olunub, ümumi sahəsi 5,0 hektar olan müxtəlif ölçülü 24 ədəd gölməçə qurudulub, 30 ədəd quyunun işçi meydançası və quyuətrafı sahələri neft tullantılarından təmizlənib, neft kollektorları təmir olunub. "Ümumrespublika Yaşıllaşdırma marafonu" çərçivəsində 11 ümumrayon iməciliyi keçirilərək 7,4 mindən artıq ağac əkilib.

### SOSİAL LAYİHƏLƏR ARTIB

Rayon əhalisinin sosial müdafiəsinin gücləndirilməsi məsələləri daim nəzarətdə saxlanılır. Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində 2015-ci ilin 9 ayı ərzində 7496 nəfərə 4,57 milyon manatdan artıq sosial müavinət ödənilib, 2173 ailəyə 3,04 milyon manatdan artıq ünvanlı sosial yardım göstərilib, 218 nəfər tənha və əlil vətəndaşa evində sosial xidmət göstərilib, 58 nəfər imtiyazlı vətəndaş reabilitasiya mərkəzində və sanatoriyalarda istirahət edib.

Rayon Məşğulluq Mərkəzinə işlə əlaqədar müraciət edə 992 nəfərdən 476 nəfəri işlə təmin olunub, işsiz statusu verilən 71 nəfərə işsizlik müavinəti verilib, 44 nəfər peşə hazırlıq kurslarına cəlb olunub, rayonun ümumtəhsil məktəblərində 906 nəfər peşəyönümünə cəlb edilib.

Ötən ilin ilk yarısında bütün ölkə vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı Suraxanı rayonunda müvəffəqiyyətlə icra edilib, rayon əhalisinin 67,4 %-i və 124 kollektiv tibbi müayinədən keçib, aşkarlanan xəstəliklər nəticəsində 6751 nəfər vətəndaş ambulator müalicəyə və 570 nəfər stasionar müalicəyə qəbul olunub, 704 nəfərin sağlamlığı bərpa edilmiş, rayon əhalisinin tibbi müayinəsinin gedişi televiziya kanallarında və mətbuatda işıqlandırılıb.

### ÖLKƏNİN SOSİAL-İQTİSADİ HƏYATINDA SURAXANININ ÇƏKİSİ ARTIB

Qeyd etmək lazımdır ki, rayonda mövcud olan problemlərdən ən ciddisi rayon ərazisində qəzalı evlərdə yaşayan sakinlərdir. Rayon rəhbərliyi onları da unutmur, xüsusilə Zığ qəsəbəsində qəzalı vəziyyətə düşmüş yaşayış evlərinin sakinlərinə köməklik göstərilir.

Ərazidə yaranmış vəziyyətin ciddiliyi və hər an insan tələfatı ilə nəticələnə biləcək bədbəxt hadisələrin baş vermə ehtimalının yüksək olduğu nəzərə alınaraq Suraxanı rayon İcra Hakimiyyətinin və aidiyyəti qurumların əməkdaşlarının iştirakı ilə Zığ qəsəbəsində yerləşən həmin evlərə vizual texniki baxış keçirib, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə 26 qəzalı evin boşaldılmasına dair Suraxanı RİH tərəfindən rayon məhkəməsində qaldırılmış iddialar təmin edilib, 22 ailə RİH-in daxili imkanları hesabına kirayə evlərə köçürülüb.

Bütün bu qeyd olunanlar rayonun ümumi həyatının əsas diqqətəlayiq hadisələridir. Lakin bu yazıda qeyd edilməyən çox sayda işlər görülüb ki, bunun da nəticəsində rayon əhalisinin rifah halı yaxşılaşıb, rayonun kənd və qəsəbələri abadlaşıb və ən əsası ölkənin ümumi sosial-iqtisadi həyatında Suraxanı rayonunun çəkisi artıb. Bu da ölkədə aparılan dövlət siyasətinə Suraxanı rayonunda verilən dəstəyin və böyük zəhmətin nəticəsidir.

Şübhə yoxdur ki, görülən və görüləcək işlər Suraxanının simasını tanınmaz dərəcədə dəyişəcək, rayon iqtisadiyyatının inkişafını, sakinlərin sosial həyatını gücləndirəcək, ən əsası, qədim mədəniyyət mərkəzi olan rayon həm də müasirliyi ilə dünyada tanınacaq.

**Elçin Bayramlı**

**Yazı Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim edilir.**